


# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

8 yanvar 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 1 (3764)


# İnkişafın yeni yol xəritəsi

**Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsi Azərbaycanın yaxın illər üçün inkişaf istiqamətlərini və siyasi prioritetlərini aydın şəkildə ortaya qoydu. Müsahibədə dövlət təhlükəsizliyi, iqtisadi islahatlar, təhsil, regional layihələr, enerji siyasəti və milli kimlik kimi məsələlər bir-biri ilə əlaqəli şəkildə dəyərləndirilib.**

***"Bizim bütün siyasətimiz həm sosialyönümlü, həm də investisiyayönümlüdür"***

Dövlət başçısının vurğuladığı əsas məqamlardan biri Azərbaycanın bu gün qlobal səviyyədə ən təhlükəsiz ölkələrdən biri kimi qiymətləndirilməsidir. Bu, yalnız vətəndaşların gündəlik həyatına təsir etmir, eyni zamanda turizm, investisiya mühiti və beynəlxalq imic baxımından strateji üstünlük yaradır. Şahdağda ilk dəfə xizəksürmə üzrə dünya çempionatının keçirilməsi və iri turizm layihələrinin reallaşdırılması bu baxımdan əhəmiyyətli hesab olunur.

Prezident Qarabağ və Şərqi Zəngəzurda tətbiq edilən idarəetmə modelinin də əhəmiyyətini vurğulayıb. Bu model daha çevik və operativ yanaşma kimi təqdim olunur və gələcəkdə ölkənin digər bölgələrində də tətbiq edilə bilər. Dövlət qurumlarının səmərəliliyinin artırılması, məmur məsuliyyətinin gücləndirilməsi və vətəndaş məmnunluğunun yüksəldilməsi əsas hədəflər kimi göstərilib.



## Prezident ölkənin növbəti illər üçün vacib prioritetlərini açıqladı

Müsahibədə uzunmüddətli inkişafın yalnız təbii resurslara deyil, insan kapitalına əsaslanmalı olduğu bildirən Prezident qeyd edib ki, elmin və təhsilin modernləşdirilməsi qaçılmazdır: "Əgər biz doğrudan da elmi inkişaf etdirmək istəyiriksə islahatlara getməliyik."

Dövlət başçısı xəbərdar edir ki, intellektual inkişaf təmin olunmasa, post-neft dövrü çətinliklər yarada bilər.

Enerji siyasəti kontekstində Azərbaycan qaz ixracı ilə daha çox ölkəni əhatə edən etibarlı tərəfdaş kimi tanındığı deyən dövlət başçısı qaz ixracının artması ilə yanaşı, müdafiə sənayesində yerli istehsalın genişlənməsi və ixrac imkanlarının artması iqtisadi şaxələndirmənin mühüm elementi kimi qiymətləndirib.

Xarici siyasət müstəvisində Prezident Qəzza ilə bağlı mövqeyini açıq şəkildə ifadə edib. Dövlət başçısı Azərbaycan hərbçilərinin ölkə hüdudlarından kənar əməliyyatlarda iştirak etməsinin nəzərdə tutulmadığını bildirib.Müsahibənin diqqət çəkən mövzularından biri də dil və kimlik məsələsidir. Prezident xarici sözlərin həddindən artıq işlədilməsinin milli dildə deqradasiya yarada biləcəyini qeyd edərək xəbərdarlıq edib ki, dilin zəifləməsi milli kimliyə və nəticə etibarilə dövlətçiliyə təhlükə yarada bilər. Buna görə də Azərbaycan dilinin qorunması ümummilli vəzifə kimi yanaşılmalıdır.

Prezident regional nəqliyyat və logistika layihələri kontekstində Azərbaycanın Mərkəzi Asiyanı Qərblə birləşdirən etibarlı tranzit ölkə olduğunu deyib.

Ümumilikdə, müsahibə göstərdi ki, inkişafın Azərbaycan modeli yalnız iqtisadi artıma deyil, təhlükəsizlik, idarəetmədə səmərəliliyin artırılmasına, mədəni kimlik, texnologiya və regional tərəfdaşlığın balanslı şəkildə təmin edilməsinə əsaslanır.

# Regional sülhün müəllifi

## Ötən il qarşıya qoyulan vəzifələr uğurla icra olundu

**"Konstitusiya və Suverenlik İli"nin yaratdığı qürur hissi ilə başa vurduğumuz 2025-ci il ölkəmizin və xalqımızın yaddaşına yeni uğurlar ili kimi həkk olundu.**

Ərazi bütövlüyümüzün tam bərpası və suverenliyimizin təminindən irəli gələn reallıqlar fonunda 8 avqustda keçirilən Vaşinqton Zirvəsində Azərbaycanla Ermənistan arasında sülh sazişi mətninin paraflanması ötən ilin ən mühüm hadisələrindən biri kimi tarixə düşdü. Bu addım Qarabağ zəfərimizin yalnız hərbi-siyasi deyil, həm də beynəlxalq müstəvidə qəbul edildiyinin, dünyanın əsas güc mərkəzlərindən biri olan Ağ Evin rəsmi mövqeyi ilə təsdiqlənməsi demək idi. Zəfərimizin 5-ci ildönümünü qeyd etdiyimiz 2025-ci il eyni zamanda respublikamızın xarici siyasətdə daha möhkəm mövqe qazandığı, iqtisadi imkanlarını genişləndirdiyi bir dövr kimi diqqət çəkdi. Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa-quruculuq işləri, oraya mərhələli qayıdışın davam etməsi də ilin mühüm hadisələri sırasında oldu.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində Prezident İlham Əliyevin qeyd etdiyi kimi, 2025-ci il də xalqımız üçün uğurlu keçdi: "Azərbaycan sülh, sabitlik və əmin-amanlıq şəraitində yaşadı".

İli əlamətdar edən mühüm məqamlardan biri də şanlı Zəfərin beşinci ildönümünün böyük qürur hissi ilə qeyd olunması idi. Beş il əvvəl 44 günlük müharibədə əldə edilmiş tam və qəti qələbənin sevincini noyabrın 8-də Azadlıq meydanında keçirilən Hərbi paradda bir daha yaşadıq. Paradda ordu quruculuğu sahəsində son illərdə görülmüş işlərin yalnız bir hissəsi nümayiş etdirildi.

Postmünaqişə mərhələsində Bakı bölgədə əməkdaşlıq və inkişafın bərqərar olması üçün ardıcıl olaraq sülhü təşviq edir və praktiki addımlar atır. Məhz bu səylərin nəticəsidir ki, Vaşinqton görüşü bölgədə davamlı normallaşma və uzunmüddətli inkişaf üçün yeni imkanlar açdı.

Həmin görüş zamanı ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Ermənistan və Azərbaycan liderləri Birgə Bəyannamə imzaladılar, sülh sazişinin mətni paraflandı və mühüm razılaşmalar əldə olundu. ABŞ-da əldə edilən razılaşmalardan biri də ölkəmizin əsas hissəsi ilə Naxçıvanı birləşdirəcək Zəngəzur dəhlizinin işə düşməsidir ki, bu da beynəlxalq daşımalar üçün yeni tranzit imkanları yaradacaq.

Vətən müharibəsindən cəmi beş il sonra sülh sazişinin paraflanması prezident İlham Əliyevin siyasətinin müdrikliyini bir daha göstərdi. Biz artıq bir neçə ildir ki, faktiki olaraq sülh şəraitində yaşayırıq.

Dövlət başçısının milli çağırış adlandırdığı "Böyük qayıdış" proqramı da ardıcıl şəkildə təhlükəsiz şəraitdə icra olunur. Azad edilmiş ərazilərdə aparılan geniş quruculuq nəticəsində bu gün orada 70 minə yaxın insan yaşayır, işləyir və təhsil alır.

Sadalanan nümunələr göstərir ki, yola saldığımız ildə dövlət qarşıya qoyduğu vəzifələri uğurla icra edib.

## ABŞ nümayəndə heyəti Bakıda

### Gündəmdə sülh və əməkdaşlıqdır

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 4-də ABŞ nümayəndə heyətini qəbul edib.

Qonaqlar ötən ilin avqustunda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı Vaşinqtonda əldə olunmuş nəticələr münasibətilə dövlət başçısını təbrik ediblər.

Dövlət başçısı regional sülh gündəliyinin irəlilədilməsi üçün Azərbaycanın səylərini davam etdirəcəyini deyib. "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin bugünkü münasibətlərə uyğun gəlmədiyini qeyd edən Prezident bu düzəlişin fəaliyyətinin dayandırılmasına görə ABŞ Prezidentinə təşəkkürünü ifadə edib, tam ləğvinə dair Konqresdə səylərin davam edəcəyinə ümid etdiyini söyləyib.

Görüşdə siyasi, iqtisadi, enerji, müdafiə, təhsil, rəqəmsal texnologiyalar və süni intellekt sahələrində əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

Həmçinin parlamentlərarası münasibətlərin inkişafı barədə fikir mübadiləsi aparılıb.

## Milad təbriki

### Birinci vitse-prezident paylaşım edib

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Milad bayramı münasibətilə rəsmi sosial şəbəkə səhifələrində paylaşım edib.

Paylaşımda deyilir: "Milad bayramı günündə edilən bütün dua və diləklərlə həmrəy olduğumu bildirir, Uca Tanrıdan hər kəsə cansağlığı, dünyamıza əmin-amanlıq diləyirəm!".

## Prezidentin müsahibəsi manşetlərdədir

### Dünya mətbuatı dövlət başçısının fikirlərinə geniş yer ayırıb

Prezident İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibə bir sıra ölkələrin mediasında geniş işıqlandırılıb və müzakirə olunub.

Türkiyə, Gürcüstan, Yaxın Şərq ölkələri, Pakistan, Hindistan, İran, İspaniya dilli ölkələr, İsrail, Bolqarıstan və Yunanıstan mediasında yayılan materiallarda Prezident İlham Əliyevin regional sülh prosesləri, Zəngəzur dəhlizinin işə salınması, yükdaşımaların artırılması, Ermənistanla münasibətlərin normallaşdırılması və qlobal təhlükəsizlik məsələlərinə dair fikirləri diqqət mərkəzində olub.

Dünya mediası Prezident İlham Əliyevin əsasən Azərbaycan hərbçilərinin ölkənin hüdudlarından kənarda heç bir hərbi əməliyyatlarda iştirak etmədiyini və bunun gələcəkdə də nəzərdə tutulmadığı fikirlərinə diqqət çəkib.


Qubada qəbul və sıra baxışı keçirilib.2

Bu günün gənci - sabahın polisi.........2

Təhlükəsiz Bakı....................................3

Güc, intizam, qələbə............................4

# Respublika Xəbərləri

### Süni intellektə hazırlıqda ciddi irəliləyiş

Azərbaycan bir il ərzində süni intellektə hazırlıq səviyyəsinə görə 111-ci yerdən 70-ci yerə yüksəlib. Ölkəmiz 2025-ci ildə ən sürətli irəliləyişə nail olaraq illik müqayisədə ən böyük artım göstərib. "Oxford Insights" beynəlxalq tədqiqat mərkəzinin yayımladığı "Hökumətin Süni İntellektə Hazırlıq İndeksi" hesabatına əsasən Azərbaycanın ümumi balı 48,96 təşkil edib ki, bu da Cənubi və Mərkəzi Asiya regionu üzrə orta göstərici hesab olunan 41,4 balı üstələyir.

### Təhsilə ayrılan vəsait artırılıb

Təhsil sektoruna dövlət büdcəsindən 5 milyard 16,4 milyon manat vəsait ayrılacaq. Maliyyə Nazirliyindən bildirilib ki, bu, 2025-ci illə müqayisədə 79,1 milyon manat çoxdur. Təhsil xərclərinin ÜDM-də payı 3,7 faiz, dövlət büdcəsi xərclərinin tərkibində payı isə 12 faiz təşkil edəcək.

### Pensiyalar bu aydan artacaq

Bu ildən bütün növ pensiyalar artırılacaq. Yanvar ayından hesablanacaq artımların həcmi 9,2 faiz nəzərdə tutulur. Sosial sahədəki bütün növ artımlar cari ilin inflyasiya göstəriciləri nəzərə alınmaqla tətbiq edilir.

### Azad olunan ərazilər minadan təmizlənir

Ötən il işğaldan azad edilən ərazilərdə aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 4 min 963, tankəleyhinə 1861 mina və 52 min 392 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Həmçinin 69 min 205.7 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

### Şuşada yeni binalar tikilir

Şuşa şəhərində D 3 və D 4 yaşayış massivlərində çoxmənzilli binalar inşa olunur. Birinci mərhələdə 10 binanın inşası davam etdirilir. İkinci mərhələdə daha 7 binanın inşasına müvafiq hazırlıq işlərinin yekunlaşmasından sonra start başlanılacaq. Birinci mərhələdə 381, ikinci mərhələdə isə 127 mənzilin tikilməsi nəzərdə tutulub.

### Ağdamdan Xankəndiyə dəmir yolu

Ağdam-Xankəndi dəmir yolu xəttinin layihələndirilməsi işlərinin 81 faizi, tikinti-quraşdırma işlərinin 29 faizi yerinə yetirilib. "Azərbaycan Dəmir Yolları" QSC-dən bildirilib ki, dəmir yolu xəttinin uzunluğu 28 kilometr, yan yollarla birlikdə isə 30,8 kilometr təşkil edir.

### Bakıda yeni svetoforlar quraşdırılıb

Daxili İşlər Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi tərəfindən Bakı şəhərinin bir sıra ərazilərində yeni nəqliyyat və piyada svetoforları quraşdırılıb. Yeni svetaforlar Xətai və Nərimanov rayonlarında bir neçə küçənin kəsişməsində istifadəyə verilib.

### Həssas qruplara sosial dəstək

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dövlət Sosial Müdafiə Fondunun təşəbbüsü ilə pensiya, müavinət və təqaüd alanlar üçün güzəşt və endirimlər nəzərdə tutan "loyallıq" platformasının yaradılmasına qərar verilib. Həmin həssas qruplara aid olan vətəndaşlar sosial bank kartları ilə nağdsız ödəmələr zamanı müxtəlif endirimlər və imtiyazlar əldə edəcəklər.

### Ötən ilin ekoloji hüquqpozuntuları

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, ötən il ərzində ekoloji hüquqpozmalarla bağlı 3 milyon 812,70 min manat məbləğində cərimə tətbiq edilib. Bu növ hüquqpozuntuları ilə əlaqəli 1044 iş isə polis və digər hüquq-mühafizə orqanlarına göndərilib.

### Qarabağ yeni texnologiya ilə işıqlandırılır

Azad edilmiş ərazilərdə, əsasən, günəş enerjisi ilə çalışan hibrid işıqlandırma sistemləri tətbiq olunur. İndiyədək bu ərazilərdə 7 mindən artıq LED işıqlandırma qurğusu quraşdırılıb. Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Şuşa, Xocalı, Laçın və Ağdərədə yeni salınan küçə və avtomobil yollarının işıqlandırılmasında, əsasən, LED texnologiyalarından istifadə edilir.

### Azərbaycanda pul bazası artıb

Bu il yanvarın 1-nə Azərbaycanda pul bazası 22 milyard 470,2 milyon manat təşkil edib. Mərkəzi Bankdan bildirilib ki, bu, ötən ayın eyni dövrü ilə müqayisədə 341,8 milyon manat çoxdur.

# Vətəndaş məmnunluğu diqqət mərkəzindədir

## Qubada qəbul və sıra baxışı keçirilib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri









general-polkovnik Vilayət Eyvazov yanvarın 5-də və 6-da Quba Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Quba rayonunda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək aziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Polis Şöbəsinin inzibati binasında Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayonlardan, eləcə də digər bölgələrdən qəbula gələn 276 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Nazir qəbula gələnlərin müraciətlərinin həlli istiqamətində zəruri addımların atılması və vətəndaş məmnunluğunun təmin olunması məqsədi ilə Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin mütləq əksəriyyəti yerindəcə öz həllini tapıb, digərləri nəzarətə götürülüb.

General-polkovnik Vilayət Eyvazov polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

Vətən müharibəsinin 19 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 223 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

# Bu günün gənci - sabahın polisi

## Məktəbdən başlayan şərəfli xidmət yolu

Ali təhsil almaq istəyən gənclər təhsil müəssisələri arasında seçim edərkən, təbii olaraq işlə təminat, məsuliyyətli vəzifə və uğurlu karyera imkanlarını nəzərə almağa çalışırlar. Azərbaycanda isə belə ali təhsil müəssisələrindən biri, hətta birincisi DİN-in Polis Akademiyasıdır.

Məhz bu səbəbdən xüsusi təyinatlı təhsil müəssisəsinə artan maraq hər il bütün ölkə ərazisini əhatə edən xüsusi təşviqat və maarifləndirmə tədbirləri ilə də dəstəklənir.

Polis Akademiyasının müəllimlərinin iştirakı ilə orta məktəblərdə keçirilən görüşlər, Akademiyadakı "Açıq qapı" günləri, DİN Şəxsi Heyətlə İş İdarəsi və yerli polis orqanları əməkdaşlarının ən ucqar kəndlərə belə gedərək bu istiqamətdə fəaliyyət göstərməsi nəticə etibarilə bizi strateji məqsədlərə yaxınlaşdırır.

Elə bu da özünü statistikada əks etdirir. Məlumat üçün qeyd edək ki, ötən il 2938 abituriyent Polis Akademiyasına qəbul üçün müraciət edib. 2024-cü ildə bu rəqəm 2250 olub ki, müraciətlərin sayındakı nəzərəçarpan artım geniş təşviqat tədbirlərinin yekunu kimi əks olunur.

Bakı məktəblərindən ümumilikdə 524 nəfər qəbul üçün sənəd verib. Paytaxtın rayonları arasında Xətai 80 şagirdlə ən çox müraciət edilən rayon olub.

Öncəki illərdə də bu rayon Akademiyaya qəbul olunanların sayına görə ön pillələrdə idi.

### Şagirdlərlə səmimi ünsiyyət onları doğru seçimə yönəldir

Ötən il Xətai rayonunun 37 məktəbində Polis Akademiyasında təhsilə təşviq məqsədilə 57 tədbir təşkil olunub. Əlavə olaraq zərərli vərdişlərlə bağlı maarifləndirici görüşlərdə də polis orqanlarında xidmətin üstünlükləri haqqında məlumatlar verilib.

Tədbirlər yalnız akt zalında ümumi görüşlərlə məhdudlaşmır, sinif-sinif gəzilərək şagirdlərlə fərdi söhbətlər aparılır. Bununla da şagirdləri maraqlandıran sualları diqqətlə dinləmək, cavablandırmaq və onlara doğru yol göstərmək mümkün olur.

Artıq ixtisas seçimi mərhələsinə çatmış yuxarı sinif şagirdləri ilə yanaşı, bir qədər aşağı siniflərlə də izahedici iş aparılır. Onlara Polis Akademiyasında təhsilin üstünlükləri, gələcək karyera imkanları izah edilir və beləliklə Akademiya üçün "ehtiyat namizəd" bazası yaradılır. Şagirdlərlə ünsiyyət zamanı onlara şərəfli polis peşəsi haqqında danışılarkən həm də xidmətdə irəli çəkilmə imkanları, xüsusi rütbələr və sosial təminatlar barədə məlumatlar verilir.

### Cavad xanın davamçıları Polis Akademiyasını seçir

Gəncə şəhəri demək olar ki, hər il Polis Akademiyasına sənəd verənlərin sayına görə liderliyini qoruyub saxlayır. Bu il də ənənə dəyişməyib. Ölkənin ikinci böyük şəhərindən Akademiyanın "İnformasiya Təhlükəsizliyi" və "Hüquq" fakültələri üzrə ümumilikdə 166 nəfər müraciət edib.

Ötən il şəhərin bütün məktəblərində ən azı iki təşviqat tədbiri keçirilib. Bilikli və perspektivli şagirdlərlə ayrıca görüşlər təşkil olunub, polis peşəsinin həyatlarındakı mümkün təsirləri real nümunələrlə izah edilib.

Fiziki göstəriciləri normativlərə tam uyğun olmayan, lakin motivasiyalı şagirdlər könüllü şəkildə xüsusi məşğələlərə cəlb edilib. Bir neçə ay ərzində onların lazımi hazırlıq səviyyəsinə çatdırılması üçün polis əməkdaşları həmin şagirdlərlə sistemli işləyib. Nəticə isə göz önündədir. Akademiyaya maraq ildən-ilə artır və Gəncə bu sahədə ön sıralardadır.

### Masallıda nümunəvi nəticə

Bölgə rayonları arasında Masallı ən çox gəncin polis zabiti olmaq üçün müraciət etdiyi rayonlardan biri olub. Polis əməkdaşlarının əhali arasında olan nüfuzu təşviqata müsbət töhvələr verməkdədir. Bu rayonun məktəblərindən 74 nəfər sənəd verib ki, onların da 13-ü kursant adını qazanıb.

Rayonda təşviqat tədbirləri yalnız tam orta məktəblərlə məhdudlaşmır, bütün təhsil müəssisələrini əhatə edir. Birinci və üçüncü ixtisas qrupuna hazırlaşan gənclərin valideynləri ilə də ayrıca izahedici iş aparılır.

Masallı artıq ikinci ildir ki, Polis Akademiyasına sənəd qəbulu üzrə bölgələr arasında yüksək nəticə göstərir. Şagirdlərə kursantlar üçün yaradılan imkanlar, maddi-texniki baza, yataqxana şəraiti və sosial təminatlar ətraflı izah olunur.

Nəqliyyat, geyim və dərs ləvazimatları ilə bağlı xərclərin Akademiya hesabına ödənilməsi kimi təfərrüatlar xüsusi vurğulanır.

Üstəlik, məzunların dərhal işlə təmin olunması, xüsusi rütbə və vəzifəyə təyinat imkanları onların müsbət qərar verməsinə ciddi təsir göstərir.

Bir sözlə, təşviqat tədbirləri ilə məktəblərdən başlayan yol gəncləri uğurlu gələcəyə, vətəndaşları isə əmin-aman sabaha doğru aparır.

*R.Mehtiyev*

# Hava şəraitindən asılı olmayan xidmət...

## DİN əməkdaşlarının bayram günlərində fasiləsiz xidməti təşkil olunub











Qış fəslində yağışın, qarın yağması, çovğun olması ilə ortaya çıxan mövsimi çətinliklərin aradan qaldırılması birbaşa olaraq polisin vəzifəsi olmasa da, belə anlarda həssas və çevik davranmaqla polis daim ictimaiyyətin diqqətini çəkib, təqdirini qazanıb. Ötən bayram günlərində kəskin hava şəraiti ilə əlaqədar olaraq polis əməkdaşlarının ölkəboyu fasiləsiz xidməti bunun növbəti örnəyi oldu.

Hətta sosial şəbəkə istifadəçiləri bu məsələ ilə bağlı öz fikirlərini bölüşərkən bayram və tətil günlərində real gücləndirilmiş iş rejimində işləyən qurum kimi Daxili İşlər Nazirliyinin adını çəkirdilər.

Bu da təsadüfi deyildi. Polis əvvəlcədən elan etmişdi ki, bayramla əlaqədar ictimai təhlükəsizliyin qorunması gücləndirilmiş iş rejimində təmin ediləcək. Həmin günlərdə havaların kəskin dəyişməsi ilə bağlı olaraq istirahət zonalarında və yollarda hərəkət intensivliyinin artmasına qarşı da adekvat tədbirlər görüldü.

Xüsusən dağlıq ərazilərdə, şəhər mərkəzləri ilə yaşayış məntəqələrini birləşdirən yollarda, eləcə də magistrallarda fasiləsiz xidmət təşkil olundu. Avtomobillərin yollarda rahat hərəkətini təmin etmək üçün xidmətə əlavə polis naryadları cəlb edildi. Digər dövlət orqanları ilə birgə yollar, nişanlar qardan təmizləndi, gecə saatlarında baş verməsi ehtimal olunan buzlaşmaya qarşı qabaqlayıcı tədbirlər görüldü. Hava şəraiti ilə bağlı DİN-in “102” Xidməti-Zəng Mərkəzinə daxil olan çağırışlar üzrə avtomobil yollarında vətəndaşlara zəruri köməklik göstərilməklə polis əməkdaşları tərəfindən müraciətlərə çevik reaksiya verilməsi gücləndirilmiş iş rejiminin effektliyini bir daha ortaya qoydu.

# Təhlükəsiz Bakı

## Bu dəfə “Euronews” hər kəsi paytaxtımızdakı sabitliklə tanış etdi

**Avropanın ən böyük beynəlxalq xəbər kanalı olan “Euronews” telekanalı Bakı şəhəri ilə bağlı hazırladığı reportajda paytaxtımızda ictimai təhlükəsizliyin gücləndirilməsi istiqamətində görülən kompleks tədbirlərə də geniş yer verib.**

Süjetdə qeyd olunub ki, müasir texnologiyalar, polis - vətəndaş həmrəyliyinin yüksək səviyyədə olması nəticəsində cinayət göstəriciləri aşağı səviyyədədir. Rəsmi qurumların məlumatına görə, paytaxtda cinayətlərin aşkar olunma faizi yüksəkdir və təhlükəsizlik sahəsində müasir texnologiyalardan istifadə






getdikcə genişlənir.

Daxili İşlər Nazirliyinin əməkdaşı Sərvinaz Ramazanova reportajda bildirib ki, hər 100 min nəfərə düşən cinayətlərin sayı bir sıra ölkə paytaxtları ilə müqayisədə xeyli aşağıdır. Cinayətlərin açılma nisbəti 85-90 faiz təşkil edir. Ağıllı nəqliyyat idarəetmə sistemləri, müşahidə kameraları şəbəkəsinin genişləndirilməsi və digər təhlükəsizlik mexanizmləri sutka ərzində fasiləsiz rejimdə fəaliyyət göstərir.

İctimai asayişin qorunmasında vətəndaşlar və müxtəlif təşkilatlarla davamlı əlaqələrin mühüm rol oynadığı da reportajda xüsusi vurğulanıb. Bakıya səfər edən qonaqlar və şəhər sakinləri də paytaxtda təhlükəsizlik mühitinin hökm sürdüyünü, özlərini rahat, güvəndə hiss etdiklərini bildiriblər.

Qeyd olunub ki, görülən tədbirlər Bakının təhlükəsiz, açıq və qonaqpərvər paytaxt kimi beynəlxalq imicinin möhkəmlənməsinə xidmət edir.

# Xidmətin mənəvi çərçivəsi

## Xidmət vaxtın bitsə də, polis adın üzərindədir

Dünyanın harasında olursa olsun, küçədə-bayırda uniformada polis görən adam ilk növbədə təhlükəsizlik və ədalət haqqında düşünür.

Təbii olaraq insan özünü daha güvəndə hiss edir. Məkandan asılı olmayaraq arxayın olur ki, heç kəs həmin an ona qarşı, məsələn, xuliqanlıq etməz, edə bilməz. Yer kürəsinin ən təhlükəsiz yeri o an məhz onun olduğu yerdir. Bu, çox incə məqamdır. Çünki vətəndaşlarda belə hiss yaranırsa, deməli, o cəmiyyətdə polisə ictimai etimad var. Etimad yoxdursa, orada qanun da çətin işləyər. İctimai etimad hər bir polis əməkdaşının şəxsi, mənəvi və işgüzarlıq keyfiyyətləri, insanlarla ünsiyyət qurmaq bacarığı ilə sıx bağlıdır. Hər birimizin davranışı ilə artan, çoxalan, ümmana çevrilən ictimai rəyi çox vaxt fərdi qayda da yaradırıq. İllər öncə ümummilli lider Heydər Əliyevin Nazirliyin şəxsi heyəti önündə çıxışında polis əməkdaşının saf mənəviyyata, xalqa və dövlətə sədaqətli xidmət etməsinin vacib olduğu barədə səsləndirdiyi fikirlər bu gün də hər birimizin yolunda mayakdır. Ümummilli liderin sadaladığı keyfiyyətləri görən qonşu da, qohum da, bir sözlə hər kəs bütövlükdə polisə hörmət bəsləyir. Polisə cəmiyyətin etibarı əksər halda bir əməkdaşın timsalında yaranır, möhkəmlənir. Təbii ki, bu məziyyətlər olmayanda tam tərsi baş verir. Etimad hər gün damla-damla qazanılsa da, ictimai yerdə adi qeyri-etik davranış ilə batmanla azala bilir. Çox güman, elə bu əhəmiyyətliliyi nəzərə alaraq Daxili işlər orqanlarının Etik Davranış Kodeksinin 9-cu maddəsində təsbit olunan “İctimai etimad prinsipi”nə ayrıca yer verilib.

Kodeksin bu maddəsinin ilk bəndində deyilir:

“Əməkdaş daxili işlər orqanlarının və daxili işlər orqanlarında xidmətin nüfuzunu möhkəmləndirməyə, öz adını və şərəfini uca tutmağa borcludur”.

Bu borcu əməkdaş sağlam həyat tərzi keçirməklə ödəyir. Xüsusi geyim formasında olarkən spirtli içkilər qəbul etməməklə, onları xidmət yerinə gətirməməklə təmin edir. Hətta xidmətdən kənar vaxtlarda belə spirtli içkiləri həddini bilməklə, özünü idarə etməyi bacarmaqla, şərəf və ləyaqəti alçaldan, eləcə də ertəsi gün xidməti vəzifələrin layiqincə yerinə yetirməyə mane ola biləcək dərəcədə içməməklə doğruldur.

**Cəmiyyətdə qəbul olunmuş ailə-məişət normalarına riayət edən, ailəsinin, uşaqlarının və valideynlərinin qayğısına qalan, nikahda sədaqətli olan əməkdaş nümunəvi polis obrazını tamamlayır.**

Cəmiyyətin gözü daim polisin üstündədir və etik kodeks çərçivəsində davranış tədricən polisin həyat tərzinə çevrilməlidir. İnsanlar qanun keşikçisini yalnız xidmətdə yox, küçədə, məclisdə, istirahət məkanında da polis kimi görür. Onlar şəxsi davranışa xidmətin davamı kimi baxırlar və bunda haqlıdırlar da. Deməli, ailə münasibəti, ünsiyyət tərzi hamısı cəmiyyətə mesaj ötürür. Polis sakit, dürüst, örnək davranış göstərir və beləcə ictimai etimad möhkəmlənir. Sözlə yox, nümunə olmaqla.

***R.Mehtiyev***

# Qanunsuz silah-sursatla mübarizə

## Odlu silah və patronlar aşkar olunaraq götürülüb

Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən qanunsuz saxlanılan odlu silah-sursatın aşkar olunub götürülməsi istiqamətində əməliyyat və profilaktik tədbirlər davam etdirilir.



Yanvarın 2-də polis əməkdaşları paytaxt və respublikanın müxtəlif rayonlarında keçirilən tədbirlər zamanı 1 avtomat silahı, 3 tüfəng, 1 patron darağı və 5 ədəd müxtəlif çaplı patron aşkar edərək götürüblər.

Yanvarın 3-də və 4-də həyata keçirilən növbəti əməliyyatlar zamanı isə paytaxt, regionlar və işğaldan azad olunan ərazilərdə 26 avtomat silahı, 26 qumbara, 11 tüfəng, 38 patron darağı və 1230 ədəd müxtəlif çaplı patron götürülüb.

Yanvarın 5-də tədbirlər çərçivəsində 3 avtomat silahı, 1 tapança, 1 qumbara, 12 alışdırıcı, 16 tüfəng, 23 patron darağı və 155 ədəd müxtəlif çaplı patron aşkar olunaraq müsadirə edilib.

Qeyd edək ki, qanunsuz silah-sursatın dövriyyədən çıxarılması istiqamətində əməliyyatlar fasiləsiz davam etdirilir və vətəndaşlardan silahların könüllü təhvil verilməsi ilə bağlı çağırışlara həssas yanaşmaları xahiş olunur.

# Paytaxt yollarında təhlükəsizlik artırılır

## Yeni hərəkət zolaqları yaradılıb

Daxili İşlər Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi tərəfindən Bakıda velosiped və kiçik elektrik nəqliyyat vasitələrinin istifadəçilərinin təhlükəsizliyinin artırılması məqsədilə yeni hərəkət zolaqları istifadəyə verilib.

Paytaxtın 47 yolayrıcında svetoforlara 115 ədəd xüsusi velosiped bölməsi quraşdırılıb. Yeni nəsil LED işıqlandırma ilə təchiz edilən bu bölmələr mikromobilliyin təhlükəsiz və rahat inkişafına xidmət edir.

Velosiped bölmələri artıq Yasamal, Səbail və Xətai rayonlarında bir sıra kəsişmələrdə fəaliyyət göstərir.

Qeyd edək ki, bu yenilik velosipedçilərin yolayrıcından təhlükəsiz keçişinə, sürücülər üçün isə əlavə vizual xəbərdarlığın yaranmasına şərait yaradır.

# Yalançı taksi sürücüsü

## Barəsində cinayət işi açıldı

Bakı şəhərində taksi sürücüsü olan 42 yaşlı Hikmət Həsənov polisə quldurluq barədə bilə-bilə yalan məlumat verib.

Yanvarın 3-də Xətai rayonu ərazisində guya müştərinin onu bıçaqla hədələyərək 80 manat pulunu taladığını bildirib. Lakin Xətai RPİ 36-cı Polis Şöbəsinin əməkdaşlarının apardığı araşdırma nəticəsində bu məlumatın tamamilə yalan olduğu üzə çıxıb.

Sürücü etiraf edib ki, müştəri pulu ödəmədiyi üçün hadisəni qəsdən quldurluq kimi təqdim edib.

Barəsində cinayət işi başlanılıb. Araşdırma davam edir.

# Keçmiş məhkumun köhnə şakəri

## Quldurluq etdiyinə görə saxlanılıb

Masallı rayonu ərazisində baş vermiş quldurluq hadisəsi üzrə polis əməkdaşları tərəfindən əməliyyat keçirilib.

Araşdırmalarla müəyyən olunub ki, naməlum şəxs mənzilə qanunsuz daxil olaraq zərərçəkəni hədələyib və 33 400 manat dəyərində qızıl-zinət əşyaları, 2 000 ABŞ dolları, 10 500 manat, 1 ədəd mobil telefon ələ keçirərək hadisə yerindən qaçıb.

Rayon Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdiyi əməliyyat tədbirləri nəticəsində cinayəti törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş 33 yaşlı Hüseyn Məmmədov saxlanılıb.

Faktla bağlı cinayət işi başlanılıb, istintaq davam etdirilir.

# Güc, intizam, qələbə

## Polisin ötənilki idman uğurları

Ötən il ərzində Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin idmançıları ölkə və beynəlxalq yarışlarda yüksək nəticələr qazanaraq diqqətəlayiq uğurlara imza atıblar. Hesabat dövründə cəmiyyətin 100-ə yaxın əməkdaşı iştirak etdikləri turnirlərdə ümumilikdə 28 medal əldə edib. Onlardan 10-u idmanın müxtəlif növü üzrə milli komandalarının tərkibində Avropa və dünya çempionatlarında qazanılıb.

### Qazanılan medalların əyarında qızıl liderdir

Ümumilikdə, hesabat dövründə DİN-in İdman Cəmiyyətinin təmsilçiləri 106 medal əldə ediblər. Bunların 45-i qızıl, 32-si gümüş, 29-u isə bürünc medaldır. Medallardan 29-u yeniyetmələrin, 40-ı gənclərin, 37-si isə böyüklərin payına düşüb. Qazanılan medalların 35-i beynəlxalq yarışlarda, 71-i isə respublika birincilikləri və çempionatlarında əldə olunub.

2025-ci ilin 31 yanvar – 15 fevral tarixlərində Bakıda keçirilən şahmat üzrə Azərbaycan çempionatı müstəqillik dövrünün ən güclü çempionatlarından biri kimi yadda qalıb. Bu mötəbər yarışda DİN-in İdman Cəmiyyətinin İdman-təlim şöbəsinin baş inspektoru polis polkovnik-leytenantı, beynəlxalq qrossmeyster Rauf Məmmədov yüksək ustalığı və qələbə əzmkarlığı ilə fərqlənərək Azərbaycan çempionu olub.

### "Polis ailəsi"ndə yetişən gənc idmançılar

Ötən ilin ölkə miqyaslı yarışlarının nəticələrinə əsasən Cəmiyyətin 60-dan artıq idmançısı müxtəlif növlər üzrə milli komandaların heyətinə cəlb edilib. Hazırda İdman Cəmiyyətində 13 idman növü üzrə 500-ə yaxın yeniyetmə və gənc idmanla məşğul olur. Onların böyük əksəriyyəti polis əməkdaşlarının ailə üzvləridir. Proqramda yer alan 9 növ (cüdo, boks, sərbəst güləş, yunan-roma güləşi, taekvondo, bədii gimnastika, stend və güllə atıcılığı, karate) olimpiya, 4 növ (əlbəyaxa döyüş, kikboksinq, ciu-citsu, akrobatika) isə qeyri-olimpiya idman növləridir.

Dekabrın 23-də Gənclər və İdman Nazirliyinin “Buta Palace”də təşkil etdiyi tədbirdə DİN-in İdman Cəmiyyəti “İlin ən yaxşı idman klubu” və “Dövlət qurumları arasında idman yarışlarının qalibi” nominasiyalarında üçüncü yerə layiq görülüb.

Cəmiyyətin İdman-təlim şöbəsinin baş inspektoru polis polkovnik-leytenantı Rauf Məmmədov “İlin ədalətli oyun” nominasiyasında üçüncü yerin sahibi olub. Qeyri-olimpiya idman növləri üzrə “İlin ən yaxşı məşqçisi” adına Cəmiyyətin kikboksinq bölməsinin məşqçi-müəllimi Hikmət Hacıyev, “İlin ən yaxşı idmançısı” adına isə bölmənin yetirməsi Elvin Məmmədov layiq görülüb.

# Süni intellekt mübarizəyə qoşulur

## Kiber məkandan tutmuş ictimai təhlükəsizliyə qədər...



### Süni intellekt- son qərarı alqoritm deyil, insan beyni verir

Texnologiya həyatımızı hər gün daha da asanlaşdırsa da, internet və rəqəmsal sistemlərdə baş verən cinayətlərin sayı da artmaqdadır. Elə buna görə də polis orqanları süni intellekt texnologiyasından geniş şəkildə istifadə etməyə başlayıblar.

Bu texnologiya cinayətlərin qarşısını vaxtında almağa, sürətli araşdırma aparmağa və ictimai təhlükəsizliyi qorumağa yardım edir.

Kibercinayətkarların şəxsi məlumatları ələ keçirmək və ya maliyyə sistemlərində manipulyasiya aparmaq kimi mürəkkəb hücumları günümüzün reallığıdır. Bu növ cinayətlərdə süni intellekt iki əsas istiqamətdə tətbiq olunur. İlk növbədə, data məlumatlarını analiz edərək anormal vəziyyətləri aşkarlayır. Məsələn, bank sistemində təyin edilən limitlərdən artıq pul köçürmələri süni intellekt vasitəsilə dərhal müəyyən edilə və polisə məlumat ötürülə bilər. İkincisi isə cinayət nümunələrinin proqnozlaşdırması. Xidmət illərində baş verən hadisələrin analitik təhlili vasitəsilə suni intellekt cinayətlərin baş verə biləcəyi yerləri və saatları qabaqcadan təxmin edir, bu da polis əməkdaşlarının vaxtında qərar qəbul etməsini asanlaşdırır.

### Kriminal risklərin kibertəhlili aparılır

Süni intellektin əsas üstünlüklərindən biri sürətli analizdir. İnsan saatlarla verilənlər, log faylları və müxtəlif sistem qeydlərini araşdırmalı olduğu halda süni intellekt bu məlumatları saniyələr içində təhlil edə bilir. Məsələn, süni intellekt yol hərəkətində təhlükəsizliyi təmin etmək üçün müşahidə olunan anormal vəziyyəti avtomatik qeydə alır, analitik qrupa xəbər göndərir və real təkliflərlə çıxış edir. Eyni zamanda süni intellekt saxtalaşdırılmış və ya dəyişdirilmiş məlumatları da daha sürətlə ayırd edə bilir. Əgər kiberhücum zamanı məlumat strukturu dəyişdirilərsə, süni intellekt sistemləri bu dəyişiklikləri tanımaq üçün əvvəlki nümunələrlə müqayisə edə bilir. Məsələn, Hindistanın Maharashtra əyalətində polis üçün yaradılmış MARVEL (Maharashtra Advanced Research and Vigilance for Enhanced Law Enforcement) sistemi süni intellektə əsaslanan qabaqcıl analitik vasitədir. Bu sistem polisə yalnız kiberhücumları deyil, həm də ümumi ictimai təhlükəsizlik risklərini real vaxtda izləməyə imkan verir. Sistem, böyük kütləvi toplaşmalarda həm fiziki, həm rəqəmsal təhlükəsizlik siqnallarını təhlil edərək potensial risklər barədə erkən xəbərdarlıq edir.

ABŞ və Avropadakı polis qurumları süni intellektə əsaslanan sistemlərdən istifadə edir ki, bu da təhlükəsizlik kameralarından gələn milyonlarla görüntünü avtomatik təhlil edir. Məsələn, bir çox şəhərlərdə kameralar süni intellekt vasitəsilə şübhəli davranışları - yığılmış kütlə, məkan daxilində qeyri normal istiqamət dəyişmələri və s. qeyd edərək mərkəzi idarəetmə sisteminə xəbər göndərir. Beləliklə, polis əməkdaşları daha strateji qərarlar üçün məlumat toplaya bilir.

### Bəs çətinlik nədir?

Göründüyü kimi süni intellektin tətbiqi hətta ictimai təhlükəsizliyin təmini sahəsində yeni imkanlar açır. Lakin bütün bu imkanlarla yanaşı süni intellektin tətbiqi müəyyən çətinliklərlə də müşayiət olunur. Süni zəka sistemlərinin yanlış qərar qəbul etmək riski də mövcuddur. Bu isə hüquqi prosedurların icrasında çətinliklər yarada bilər. Bu səbəbdən süni intellekt sistemləri sadəcə dəstək aləti olaraq tətbiq olunmalı və polis əməkdaşlarının təcrübəsi ilə birləşdirilməlidir. Son qərarı alqoritm deyil, insan məntiqi və intuisiyası verməli, nəticə isə hüquqi baza ilə möhkəmlənməlidir. Məsələn, süni intellektin polislə birlikdə apardığı mübarizə göstərir ki, virtual mühitdə baş verən real təhlükələrə qarşı güclü müdafiə mümkündür.

*A. Tahirova*

# Bir ifadənin izi ilə...

## Cinayətkar nə qədər “usta” olsa da, polis hər zaman bir addım öndədir

Bəzən “peşəkar oğru” sözünə rast gəlirik. Bəs bir cinayətkar peşəkar ola bilərmi? Ümumiyyətlə, peşəkarlıq sözü cəmiyyətin əmin-amanlığını, təhlükəsizliyini təhdid edən cinayət subyektinin necə olur ki, “sifəti” olur?

İlk dəfə “peşəkar cinayətkar” anlayışı 1897-ci ildə Beynəlxalq Kriminalistlər Birliyinin Heidelberq Konqresində qəbul edilmiş cinayətkarların təsnifatında müəyyən edilib. Bu anlayış kriminalistlər tərəfindən ilk növbədə cinayətkarın cinayət törətmək üçün güclü istəyə sahib olmaq kimi xüsusiyyəti ilə əlaqələndirilib.

Bu konqresdən sonra cinayətkarın xüsusi olaraq öyrənilməsi üçün elmi yanaşmanın əsası qoyulub. Əslində, cinayətkarlıqla mübarizə praktikasında peşəkar cinayət növü və “peşə” termini özü xeyli əvvəl - XVIII əsrin sonlarında ortaya çıxıb.

Parisin gizli polisinin başçısı Fransua Vidok müəyyən cinayətkarlıq növlərində bacarıq əldə edənləri, sistemli şəkildə oğurluq, fırıldaqçılıq və digər cinayətlər törədənləri “peşəkar cinayətkarlar” adlandırdı. Onların xüsusi gizli bir dilə (arqo) sahib olduqlarına da diqqət yetirirdi.

Vidoka qədər peşəkar cinayətkarlara münasibətdə terminologiya yox idi - onlara "adətkar", "xroniki", "islaholunmaz" deyilirdi. Sonrakı illərdə peşəkar cinayətkar dəfələrlə eyni tipli cinayət törətmiş şəxslər sayıldı. Eyni zamanda onlar müəyyən bilik və bacarıqları mənimsəyir, cinayətə dolanışıq mənbəyi kimi baxırdılar.

Sovet dövründə isə peşəkar cinayət termini ya tamamilə rədd edildi (cinayətkar peşəkar ola bilməz, çünki istənilən cinayətkar yaxalanır məntiqi ilə), ya da keçmişin qalığı kimi qəbul olundu.

Bununla belə residivizmə, cinayət törətmə üsullarına və cinayət subkulturasına (jarqon, döymələr, oğruların mahnıları) aid aparılan araşdırmalar, əslində, onun müəyyən əlamətlərinin olduğunu təsdiq edirdi.

Məsələn, kriminalistlər hesab edir ki, sahibinin yanında avtomobillərdən çantaların oğurlanması, cibgirlik, pul dəyişdirmə və digər bəzi cinayət növləri xüsusi texnikalardan istifadə etmədən ümumiyyətlə törədilə bilməz. Bundan əlavə, cinayətkarlar jestlər, baş hərəkəti və üz ifadələri ilə verilmiş şərtləndirilmiş siqnallar ("mayaklar") sistemini də öyrənirlər. Bacarıq nə qədər yüksəkdirsə, cinayətlər də bir o qədər intensiv olur. Orta hesabla, “peşəkar” bir cibgir ayda 25-30 oğurluq törədə bilər ki, bu da müəyyən bacarıqlardan irəli gəlir.

Yekun olaraq deyə bilərik ki, peşəkar cinayətkar anlayışı cinayətkarın müəyyən bacarıqlarını ifadə etsə də, heç də onun polis orqanlarının təqibindən yaxa qurtara biləcək qədər bacarıqlı olduğu mənasını vermir.

# Uniformamızda niyə qırmızı rəng var?

## O, tarixi, simvolik və praktik məna daşıyır

Polis uniformasında hər detal müəyyən funksiyanı yerinə yetirir və özünəməxsus məna daşıyır. Bu detallar arasında qırmızı rəng xüsusi yer tutur. Bir çox ölkədə polis forması və atributlarında qırmızının görünməsi həm tarixi ənənə, həm də praktiki zərurətlə bağlıdır. Əvvəla, qırmızı rəng insan gözü üçün ən tez seçilən rənglərdən biridir, buna görə də forma üzərində qırmızı elementlərin olması polis əməkdaşını kütlədən ayırır, insanların onu dərhal tanımasına imkan verir və fövqəladə vəziyyətlərdə burada rəsmi qurum nümayəndəsinin olduğunu göstərir. Polis formalarında əsas rəng adətən tünd göy və ya qara olur ki, bu da sakitlik və etibarlılıq yaradır. Bununla yanaşı Azərbaycanda və bir çox ölkələrdə uniformanın detallarında qırmızı rəngə poqonların kənarlarında, yaxalıq haşiyələrində, kantlarda rast gəlinir. Tarix boyu qırmızı hakimiyyətin, gücün, qanunun, xəbərdarlığın və qadağanın rəngi kimi qəbul edilib. Buna görə polis və digər güc strukturlarının vizual görünüşündə bu rəng səlahiyyət və məsuliyyətin rəmzi kimi yer alır. Bəzi ölkələrdə polis qurumları vaxtilə hərbi strukturlara bağlı olduğu üçün formadakı qırmızı zolaqlar, lampaslar və paqonlardakı vurğular hərbi ənənədən qalan miras kimi qorunub saxlanılıb və zamanla polisin öz simvoluna uyğunlaşdırılıb.

Qırmızı rəng eyni zamanda rütbə və statusu fərqləndirmək üçün də istifadə olunur, yüksək rütbəli əməkdaşların formalarında qırmızı daha nəzərəçarpan olur.

Beləliklə qurum daxilində vəzifə və rütbələr üzrə ierarxiya vizual olaraq daha aydın görünür. Məsələn, generalların formalarında qırımızı lampaslar bunu əyani göstərir. Yəni polis formasında qırmızı rəng sadəcə bəzək deyil, həm fərqlənməni artıran praktik vasitədir.

# Cinayətin "havada" qalan izləri

## Görünməz dəlillər, danılmaz həqiqətlər…



Qoxular da “danışır”. Kriminalistlər üçün cinayət yerindəki hər bir iz mühümdür. Bura yalnız barmaq izləri və ya qan ləkələri deyil, qoxular da daxildir. Bəli, bəzi cinayətlərdə geridə buraxılan kimyəvi qalıqlar, yanmış təkər iyindən tutmuş tər qoxusuna qədər, polisin dəlilləri izləməsində vacib rol oynayır. Bu sahədə ən güclü yardımçılardan biri isə kimyəvi analiz üsullarıdır.

Müasir kriminal laboratoriyalarda cinayət yerindəki qoxular qaz xromatoqrafiyası–kütlə spektrometriyası və infraqırmızı spektroskopiya ilə analiz olunur. Məsələn, bir evdə yanğın hadisəsində polis, alovun səbəbi olaraq kənardan əlavə edilmiş benzin və ya spirt kimi tezalışan maddəni müəyyən etmək üçün bu cihazlarla qoxu qalığını yoxlayır. Qalıq tapılan yerin yaxınlığında olan şəxslərin geyimi də analiz olunur və nəticədə qəsdən yandırılma sübut oluna bilir.

2015-ci ildə İngiltərədə baş verən bir oğurluq hadisəsində ev sahibəsi hadisə vaxtı otaqda yad bir parfüm iyini hiss etdiyini bildirib. Polis hadisə yerindən hava nümunəsi götürərək analizə göndərib. Nəticədə bu qoxunun konkret bir kişi ətirinə aid olduğu müəyyənləşib.

Qatillər çox vaxt dəlilləri təmizləməyə çalışırlar. Amma onların bədənindən çıxan tər, istifadə etdikləri maddələr, siqaretin tüstüsü və ya spirt buxarı kimi uçucu birləşmələr cinayət yerində iz buraxır. Bəzən bu qalıqlar mebel üzərində, pərdədə, hətta havada qalır və analiz edilərək kimə aid olduğu müəyyənləşdirilə bilir.

Artıq müasir kriminalistika yalnız görünənlərlə işləmir, görünməyənlər, xüsusilə də qoxular və uçucu maddələr cinayətlərin açılmasında böyük əhəmiyyət daşıyır. Qoxuların “dil”i var və bu “dil”lə danışmağı bacaran polis əməkdaşı baş verən cinayətlərin üstünü açmağa hər zaman bir addım daha yaxın olur.

*A.Tahirova*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: ANAR QAFAROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik